**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ROBERT HAYNLAYNIN YARADICILIĞINDA FÖVQƏLİNSAN OBRAZI

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Günel Akif qızı Ələsgərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Aynur Zakir qızı Sabitova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya üzrə fəlsəfə doktoru
**Arif Alim oğlu Əsədov**

filologiya üzrə fəlsəfə doktoru
**Leyla Elşad qızı Qocayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
____________ **Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
____________ **İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
____________ **Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ötən əsrin ortalarında ABŞ ədəbiyyatşünaslığının tərkib hissəsi olan, önəmli cərəyanlarından biri hesab edilən, hadisələrin gözlənilməz məqamlarda, situasiyalarda baş verdiyi və eyni zamanda elmlə simbioz modelini təcəssüm etdirən sahəsi elmi fantastika olmuşdur. Belə ki, elmi fantastik əsərlərdə qabardılan problemlərin ərz edilməsi bir millətin, dövlətin problemləri çərçivəsinə sığmır, bəşəri, qlobal xarakter daşıyır və buna görə də ədəbiyyatşünaslıqda yeni çalarların, fərqliliklərin meydana gəlməsinə səbəb olurdu. Elmi fantastika hər zaman elm, ixtira və yeniliklərlə əlaqəli bədii-ədəbiyyat növü hesab edilərək "ideyalar ədəbiyyatı" statusunu qazanmışdır[1].

XX əsrdə elmi fantastikanın öncül ölkələri İngiltərə, ABŞ və Rusiya hesab oluna bilər, belə ki, o ölkələrdə elm və texnikanın inkişafı, kosmik tədqiqatlarla bağlı olaraq qazandığı nailiyyətlər bu növdə qələmini sınamaq istəyən müəlliflərə zəngin ideya bəxş etmişdir[2]. Elm və texnikanın yüksək səviyyədə inkişafını yaşayan ABŞ ədəbiyyatı bir çox standartlar üzrə irəli addımlamış və hazırda öncül mövqedə qərarlaşmışdır[3]. Bu və digər səbəblərdən okeanın o tayındakı ədəbiyyat son iki onillikdə Azərbaycan tərcümə sənətində və ədəbi-tənqidi fikrində daha çox tərcümə olunan və öyrənilən sahələrdən birinə çevrilmişdir. Amerika ədəbiyyatının tarixi, buxovları, perspektivləri, müxtəlif cərəyanları, dünya şöhrətli yazıçıları alimlər, mütəxəssislər və gənc tədqiqatçılar tərəfindən, xüsusilə sosial-bəşəri problematika baxımından araşdırılaraq təhlil edilmiş və edilməkdədir[4].

Hazırkı dissertasiya işi yeni bir Amerika elmi fantastik məktəbini yaratmağa müvəffəq olmuş, fərqli etnomentallıq daşıyıcısı, sözügedən sahənin dahisi Robert Haynlaynın bədii-estetik

---

[1] Glencoe literature, the reader's choice. Unit six, Science Fiction and Fantasy. / – United States of America, – 2000. – 997 p.

[2] D'Ammassa, D. Encyclopedia of science fiction. /D.D'Ammassa. – New York, – 2005. – 538 p.

[3] Roberts, A. The History of Science Fiction. / A.Roberts. – New York, – 2006. – 195 p.

[4] Quliyev, Q. XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. / Q.Quliyev. – Bakı: Azərbaycan Universiteti, – 2011. – 208 s.

irsinə, spekulyativ elmi fantastika ənənəsinə, əsərlərində fövqəlinsan obrazlarına və kamil nəsil mövzusuna həsr edilmişdir. Yazıçının fəlsəfəsinin dəyərləndirilməsi, ideyalarının sistemli şəkildə araşdırılması da dissertasiyanın aktuallığını şərtləndirən amillər sırasında qeyd edilməlidir. Belə ki, XX əsr amerikan toplumunun nəbzini tutan Robert Anson Haynlaynın tərcümeyi-halı, yaradıcılığı, gənclər üçün yazdığı romanların tədqiqi, əsərlərində fövqəlinsan obrazlarının öyrənilməsi baxımından dissertasiya yetərincə informativ tədqiqat obyektini təşkil edir.

Dünya şöhrətli amerikalı ədib Robert Haynlayn olduqca səmərəli fəaliyyət göstərmiş, 42 kitab toplusunda mürəkkəb xarakterlər qalereyasını öz qələmindən çıxartmışdır[5]. Yazıçı öz əsərləri ilə XX əsrdə elmi fantastik ədəbiyyatın müasir vəziyyətini və inkişaf trayektoriyalarını dəqiqliklə əks etdirir. Araşdırmanın aktuallığı R.Haynlaynın yaradıcılığının spesifik xüsusiyyətlərini üzə çıxartmaq, yaradıcılığında fövqəlinsan, gələcək nəsil obrazlarının sistemli analizinin zəruri olması ilə müəyyənləşir. R.Haynlaynın əsərlərində “göylər adamı” məsələsinə baxılması elmi fantastikaya yeni bucaqdan yanaşmaq deməkdir. Yazıçını bütün mürəkkəbliyi və paradoksal dəst-xəti ilə XX əsrdə dünyada gedən ədəbi proseslərin tərkib hissəsi kimi araşdırmaq, o cümlədən Azərbaycan ədəbiyyatşünaslığında fövqəlinsan obrazlarını da təhlil etmək baxımından mövzu olduqca əhəmiyyətli və aktualdır.

XIX əsrin sonu − XX əsrin birinci rübündə qərb ideologiya tərzinin aparıcı və cəsarətli konsepsiyalarından biri olan və ədəbi-bədii fikrə dərin nüfuz etmiş F.Nitsşenin “fövqəlinsan”[6] konsepsiyası cari tədqiqat işində müfəssəl formada işlənmiş və baş qəhrəmanın yaradıcılığı ilə müəyyən müqayisələr aparılmışdır. Belə ki, ədəbiyyatşünaslıqda “fövqəlinsan” ideyasının tədqiqi üçün fəlsəfi əsaslar mühüm hesab edilmiş və bu cür obrazlar silsiləsi formalaşdırılmışdır. V.Stepldon, T.Stargen, F.Q.Vayli, S.Lem, F.Pol, A.V.Voqt, V.S.Vinj və digər yazıçılar elmi fantastik əsərlərində

---

[5] The Heinlein archives: [Electronic resource] / – 2024. URL: http://www.heinleinarchives.net/upload/index.php

[6] Young, J. Friedrich Nietzsche: a philosophical biography. / J.Young. – New York: Cambridge University Press, – 2010. xvi, – 649 p.

“fövqəlinsan” obrazlarına qeyri-adi bacarıqlar və paranormal qabiliyyətlər vermişlər. Bu ədəbi qəhrəmanlar sürət, güc və intellekt baxımından üstün olaraq daima mübarizədə təsvir edilmişdir. Dissertasiya işinin aktuallığını şərtləndirən mühüm amillərdən biri də, mövzuda adı çəkilən yazıçıların seçilmiş əsərlərinin tədqiq edilməsidir.

Fövqəlinsan, süni insan, super insan, üst insan, post insan, robot insan mövzusunu, demək olar ki, hər bir elmi fantast yazıçının yaradıcılığında görmək olar[7]. Belə ki, fövqəlinsan obrazı fantastik əsərlərdə çox müraciət olunan və həmçinin çətin işlənən mövzulardandır. Bu səbəblə, dissertasiyada fövqəlinsan obrazların qaynaqlarını araşdırmaq, elmi fantastik ideya ənənələrinə təsirini öyrənmək olduqca aktualdır. Fövqəlinsan obrazını məhz Robert Haynlayn yaradıcılığında araşdırmaq, bir növ ədəbiyyatşünaslıqda elmi nəzəri boşluğu doldurmaq deməkdir.

XX əsr elmi fantastika sahəsinin “sima”sını müəyyənləşdirən aparıcı qələm sahibi Robert Haynlaynın antikommunist baxışlarına görə Azərbaycanın da daxil olduğu keçmiş SSRİ zamanında ədəbi-bədii irsi tərcümə edilməmiş, uzun illər kölgədə qalmışdır. Yalnız 70-ci illərdən sonra oxucular yazıçının yaradıcılıq orbitinə daxil olmuş, sürətlə tərcümə olunan əsərlərini mənimsəmişlər. Keçmiş sovet ölkələrində 80-ci illərdən sonra ümumbəşəri rakursdan yanaşılaraq yazıçının romanları araşdırma obyektinə çevrilmişdir. Belə ki, Robert Haynlayn irsi rus ədəbiyyatşünaslığının diqqət mərkəzindən kənarda qalmamış, A.Balabuxa[8], A.Yermolayev[9] və digər rus tədqiqatçıları cari sahədə ciddi araşdırmalar aparmışlar. Haynlayn irsinin daha dolğun portretini, əlbəttə ki, yazıçının soydaşları tərəfindən aparılmış tədqiqatda görmək olar. Amerika ədəbiyyatşünaslığında R.Haynlaynın yaradıcılığı ilə bağlı

---

[7] Шичанина, Ю. Феномен сверхчеловека в духовной культуре XX века: /Автореферат дисс.канд. философских наук/ – Ростов-на-Дону, – 1998.

[8] Балабуха, А. Роберт Энсон Хайнлайн. Адмирал звездных морей: [Электронный ресурс] / URL: https://web.archive.org/web/20120613224008/http://olmer.ru/heinlein/index.shtml

[9] Ермолаев, А.И. Главный миф о Хайнлайне // К 100-летию Роберта Хайнлайна // FANтастика, – август 2007. № 6, – 128 с.

V.Paterson[10], C.Qifford[11], N.Şulman[12], L.Stover[13], C.H.Gillilənd, J.H.Seltzer, S.Robinson[14], J.Haldeman, A.Panshin[15], G.D.Nordley, F.Mendleson[16] və sair bu kimi tədqiqatçıların iri həcmli tədqiqat işlərinə rast gəlinir.

Elmi fantastikanın "Qızıl əsr" dövrü və "Böyük üçlük" yazıçılarından biri olan Robert Haynlaynın şəxsiyyəti, fəlsəfəsi və yaradıcılığı haqqında Azərbaycan oxucusu geniş məlumata sahib deyildir. Belə ki, "Dünya elmi-fantastik ədəbiyyatı antologiyası I cild"[17] və "Dünya elmi-fantastik ədəbiyyatı antologiyası II cild"i[18] 2013-2014-cü illərdə çap edilmişdir. Antologiyada R.Haynlaynın yalnız "Kainat ögeyləri" romanı rus dilindən tərcümə edilmişdir. XX Azərbaycan ədəbiyyatşünaslığımızda və ədəbi tənqiddə ədib barəsində nə ki ciddi məqaləyə, sadə araşdırmaya belə rast gəlmirik. Mövcud tədqiqat R.Haynlayn irsinin öyrənilməsi sahəsində ilk ciddi elmi təşəbbüsdür.

Artıq R.Soltanova[19], G.Əhmədova[20], R.Ömərov[21] və

---

[10] Patterson, W.H.Jr.: In dialogue with his century, Vol. 1: Learning curve 1907-1948. Paperback, – June 21, – 2011.

[11] Gifford, J.D. Robert A.Heinlein: A reader's companion. / J.D.Gifford, J.Gifford. May 8, 2000. – 304 p.

[12] Schulman, J.N. The Robert Heinlein interview and other Heinleiniana. Pulpless.com; 1st edition, – January 31, 1990. – 204 p.

[13] Stover, E.L. Robert A. Heinlein, Twayne's United States authors series. Twayne pub; First edition. December, – 1987. – 147 p.

[14] Robinson, S. Rah, Rah, R. A. AH! / S.Robinson. – New York: Ace, – 1980.

[15] Panshin, A. Heinlein in Dimension/Advent Publishers, – June 28th, 1968. – 214 p.

[16] Mendlesohn, F. The pleasant profession of Robert A. Heinlein. / F.Mendlesohn. – Unbound, – 2019.

[17] Orucov, H. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası / H.Orucov, N.Orucova. – Bakı: – I c., – 2013. – 400 s.

[18] Orucov, H. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası / H.Orucov, N.Orucova. – Bakı: – II c., – 2014. – 400 s.

[19] Soltanova, R. Azərbaycan ədəbiyyatında elmi-fantastik janr: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2010. – 27 s.

[20] Əhmədova, G. Azərbaycan ədəbiyyatında elmi-fantastik janrın ənənələri: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2014. – 26 s.

[21] Ömərov, R.A. XX əsr ABŞ və Azərbaycan ədəbiyyatında elmi-fantastik janr (Ayzek Azimov və Emin Mahmudovun yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2003. – 22 s.

X.Abdullayeva [22] elmi fantastik janrı bizə dissertasiya işlərində əhatəli tanıtmışdır. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatşünaslığında D.Səmədova[23], N.Sadıqova[24], C.Əhmədov, Z.Ağayev[25], A.Eminov[26] və başqa araşdırmalarda elmi fantastika müxtəlif aspektləri araşdırılmış və onun XX əsr Amerika və Azərbaycan ədəbiyyatında inkişafına diqqət yetirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın *obyektini* Robert Haynlaynın yaradıcılığı və "Bu üfüqdən o tərəfə", "Yad ölkədə yad adam" və "Fraydi" əsərləri, tədqiqatın *predmetini* isə Haynlaynın əsərlərində fövqəlinsan obrazlarının xüsusiyyətləri, mahiyyəti, problemi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hazırlanmış dissertasiya işinin başlıca məqsədi XX əsr Amerika Birləşmiş Ştatlarının ən parlaq nümayəndələrindən olan Robert Haynlaynın ədəbi-bədii yaradıcılığını araşdırmaq və ədəbiyyatşünaslığa fövqəlinsan obrazları ilə gətirdiyi töhfəsini Azərbaycan oxucusuna çatdırmaqdır. Həmçinin tədqiqat işinin əsas məqsədi elmi fantastikanın XX əsrdə Amerika ədəbiyyatında keçdiyi müxtəlif estafetləri və təkamül özünəməxsusluğunu araşdırmaq, fövqəlinsan obrazının qaynaqlarını tədqiq etmək, Robert Haynlaynın romanlarında fövqəlinsan obrazını təhlil etmək və əldə olunmuş nəticələri Azərbaycan bədii sözündəki bənzər və fərqli məqamları ilə tutuşdurmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri icra etməklə mümkün olacaqdır:

- XX əsr Amerika elmi fantastik ədəbiyyatının önəmli simalarından biri olan Robert Anson Haynlaynın bioqrafiyasından

---

[22] Abdullayeva, X.V. İngilis – Azərbaycan Elmi Fantastika Ədəbiyyatının İnkişaf Təmayülləri (Herbert Uels və Azərbaycan elmi fantastikası): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2022. – 32 s.

[23] Səmədova, D. Elmi fantastik ədəbiyyatın tədqiqi tarixinə bir nəzər // – Bakı: Elm və təhsil, Filologiya məsələləri, – 2017. № 1, – s.267-272.

[24] Садыхова, Н. Современная американская научная фантастика. Проблемы метода и жанра: (На материале творчества А.Азимова, Р.Брэдбери, К.Саймака): /автореферат дисс.канд. филол.наук/ – Баку, 1987. – 25 с.

[25] Ağayev, Z. Azərbaycan-Amerika ədəbi əlaqələri: / filologiya üzrə elmlər doktoru dis./ – Bakı, 1997. – 377 s.

[26] Eminov, A. Elmi-fantastika bədii janrdır // Azərbaycan gəncləri qəzeti. – 1988, 2 aprel.

mühüm məqamları təqdim etmək və onun ədəbi fəaliyyətinin əsas mərhələlərini və fəlsəfi düşüncə inkişafını izləmək;

- ABŞ-də "Qızıl əsr" dövrünün meydana gəlməsi, onun öncül mövqeyə keçmə tarixini və şərtlərini araşdırmaq, eləcə də bu dövrün "Yeni dalğa", yumşaq elmi fantastika, spekulyativ fantastika, fentezi və kiberpankla mərhələli şəkildə əvəzlənməsini tədqiq etmək və həmin dövr yazarlarının yaradıcılığını analiz etmək;
- Haynlaynın "Yad ölkədə yad adam", "Fraydi" və "Bu üfüqdən o tərəfə" romanlarında fövqəlinsan konsepsiyasını dissertasiya biçimində təhlil etmək;
- Haynlaynın gənclər üçün yazdığı 12-dən çox romanın əsas qəhrəmanlarının ideologiya tərzini elmi şəkildə müəyyənləşdirmək;
- Fəlsəfə, bədii ədəbiyyat və elmi fantastikada fövqəlinsan obrazının tarixini izləmək, Fridrix Nitsşenin "fövqəlinsan" anlayışının elmi fantastik əsərlərdəki izini müəyyənləşdirmək, "ali insan" konsepsiyasını, onun fərqli xüsusiyyətlərini elmi şəkildə araşdırmaq;
- Azərbaycan nəsrində fövqəlinsan obrazlarını təhlil etmək, xüsusilə elmi fantastik janrda yazılan əsərlərdə fövqəlinsan, kamil insan, ali insan obrazlarını işıqlandırmaq.

**Tədqiqat metodları**. Dissertasiyada, əsasən, təsviri analitika və strukturalizm metodundan istifadə edilərək mətndəki əsas strukturları, o cümlədən dil, hekayə formalar və mədəni/ədəbi kodları araşdırmağa çalışılmışdır. Həmçinin tarixi-müqayisəli, fəlsəfi-psixoloji tədqiqat üsulu tətbiq edilmişdir. Tədqiqatın aparılması zamanı daha çox ABŞ, Rusiya, İngiltərə və Azərbaycan alimlərinin, jurnalistlərinin və ədəbi tənqidçilərin işləri nəzərdən keçirilmiş, XX əsr ABŞ sosial-ictimai həyatı nəzərə alınmışdır.

Robert Haynlayn yaradıcılığını təhlil etmək üçün onun ədəbi irsi Amerika, habelə dünya ədəbiyyatı ilə müqayisədə öyrənilmiş, müvafiq elmi nəzəri əsərlərdə fövqəlinsan obrazına yeni baxış və fərqli ideyalar tədqiqatda nəzərə alınmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1) R.Haynlayn karyerasının ilkin mərhələsində belə, ədəbiyyat və incəsənətin mərkəzi mövzusu olan insan təcrübəsini özünəməxsus nöqteyi-nəzərdən təqdim edir. O, 20-ci əsrdə fərdlərin üzləşdiyi əsas

problemləri həll edən fövqəlbəşər konsepsiyasını işləyib hazırlamışdır. Bu anlayış özünün tam bədii və əhatəli ifadəsini "Yad ölkədə yad adam", "Fraydi" və "Bu üfüqdən o tərəfə" romanlarında tapmışdır;

2) Sənətkarın yaradıcılığı "Qızıl əsr" dövrü ilə sıx bağlı olmuş və XX əsr elmi fantastika sərhədlərini təkcə Amerikada deyil, bütün dünyada müəyyənləşdirmişdir;

3) XX əsrdə uşaq elmi fantastik ədəbiyyatın gözəl nümunələrini Robert Haynlayn macəra dolu, ön görmə proqnozlarla bol və uşaq təfəkkürünə uyğun on iki "gələcək nəsil" obrazlar silsiləsində yaratmışdır;

4) Dünya ədəbiyyatşünaslığında fövqəlinsan qəhrəmanın tipologiyasını onun estetik, zehni, mənəvi və fiziki təkamülü kontekstində müəyyənləşdirir: fəlsəfədən elmi fantastikaya doğru;

5) Azərbaycan ədəbiyyatşünaslığında fövqəlinsan obrazları daha çox "kamil insan" obrazında işlənmiş və həmçinin elmi fantastik ədəbiyyat nümunələrində də çox bəsit işlənən fövqəlinsan qəhrəmanlara rast gəlinir;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya mövzusu Azərbaycan ədəbiyyatşünaslığında ilk sistemli təhlildir. Amerika ədəbiyyatının tarixi inkişafı, təkamül yolları və ümumi istiqamətləri müəyyən dərəcədə araşdırılsa da, elmi fantastika janrının, xüsusilə də onun son yüzillik inkişaf dövrünün və dünya ədəbiyyatına bənzərsiz töhfələr vermiş, fenomenə çevrilmiş Robert Haynlaynın həyat və fəlsəfəsinin Azərbaycan elmi müstəvisində demək olar ki, işlənməməsi təəccüblüdür. Haynlaynın fövqəlinsan və gələcək nəsil obrazlarının təhlili bu sahədə ətraflı araşdırmaya ehtiyac duyur. Dissertasiyanın əsas elmi yeniliyi XXI əsrdə insanın fövqəl keyfiyyətlərinin aktuallığını nəzərə alaraq, elmi fantastika janrında fövqəlinsan obrazlarının tipoloji təhlilinin aparılmasındadır. Haynlayn yaradıcılığının sistemli şəkildə tədqiqi bu məqsədin həyata keçirilməsi üçün zəruridir.

Mürəkkəb süjetlər və yenilikçi konsepsiyalarla zəngin olan Haynlaynın əsərləri dünya elmi fantastika ədəbiyyatında mühüm yer tutur. Onun əsərlərindəki fövqəlinsan obrazı xüsusilə aktuallığını qoruyur və bu janrda əhəmiyyətli mövzulardan biri olaraq qalır.

Haynlayn bir çox romanında baş qəhrəmanlarını qeyri-adi bacarıqlara sahib fərdlər kimi təqdim edir; bu tip obrazların təhlili isə hələ Azərbaycan ədəbiyyatında kifayət qədər işlənilməmişdir. Dissertasiyanın digər yeniliklərindən biri də dünya və Azərbaycan ədəbiyyatşünaslığında fövqəlinsan obrazlarının hərtərəfli və ədəbi baxımdan ilk dəfə əhatəli şəkildə təhlilə cəlb edilməsidir.

Haynlaynın əsərlərinin yazılmasından yarım əsrdən çox vaxt keçməsinə baxmayaraq, bu əsərlər öz aktuallığını qoruyub saxlayır, çünki hər yeni nəsil onları öz dövrünün və milli-mədəni dəyərlərinin prizmasından dəyərləndirir. Bununla yanaşı, Haynlaynın fövqəlinsan obrazlarını gələcəyin insan konsepsiyası baxışından təhlil etmək həm ədəbiyyatşünaslıq, həm də digər elmlər üçün xüsusi əhəmiyyət kəsb edir, çünki bu yanaşma geniş mədəni və fəlsəfi suallarla kəsişir. Bu yanaşma dissertasiyanı mövcud tədqiqatlardan fərqləndirən əsas elmi yenilik kimi çıxış edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Bu tədqiqat işi ədəbiyyatda və elmi fantastik əsərlərdə fövqəlinsan obrazı kimi fundamental məsələyə hali olmaq baxımından mühüm nəzəri əhəmiyyət kəsb edir. Belə ki, dissertasiya işinin nəzəri və praktik əhəmiyyəti, ilk növbədə, mövzunun aktuallığı, onun ilk dəfə sistemli şəkildə araşdırılması, gələcəkdə Azərbaycan ədəbiyyatşünaslığında Robert Haynlayn yaradıcılığı haqqında tədqiqatların aparılmasına yardımçı vasitə olması ilə səciyyələnir. Araşdırmaların nəticələrindən Robert Haynlaynın həyat, yaradıcılığı və fəlsəfəsinin öyrənilməsində, insan və fövqəlinsan obrazlarının təhlilində, elmi fantastik və fantastik növün mənimsənilməsində və sair problemlərin nəzəri məsələləri ilə məşğul olan tədqiqatçılar istifadə edə bilər. Bu istiqamətdə gələcəkdə yeni işlərin yazılması və yeni kitabların nəşrinə köməklik göstərilə bilər.

Cari dissertasiya işi həm də təcrübi cəhətdən əhəmiyyətlidir. Tədqiqatdan Azərbaycan, İngiltərə, Amerika və dünya ədəbiyyatından Azərbaycan universitetlərində və digər təhsil ocaqlarında bakalavr, magistr pillələrində mühazirə və seminarların tədrisi zamanı istifadə oluna bilər. Dissertasiyanın materialları müasir Azərbaycan ədəbiyyatı üzrə ümumi dərsliklərin tərtibində, eləcə də respublikada fantastik ədəbiyyat üzrə ali məktəb mühazirələri üçün

vəsaitlər hazırlanması zamanı istifadə oluna bilər. Həmçinin ayrıca kitab şəklində dərc olunmaqla respublikanın ABŞ ədəbiyyatı aludəçilərinə və fantastika sevərlərinə töhfə kimi xidmət edə bilər.

**Aprobasiyası və tətbiqi.** Tezislər və məqalələr mövzunun əsas arqumentlərini və elmi-nəzəri nəticələrini əks etdirərək, həm milli, həm də beynəlxalq elmi jurnallarda dərc edilib, beynəlxalq elmi konfranslarda təqdim olunub və akademik və ədəbi ictimaiyyətdə maraqla qarşılanıb.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Mühəndislik Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında hazırlanmış, müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 9 səhifə, 17467 işarə, I fəsil 40 səhifə, 78119 işarə, II fəsil 40 səhifə, 78493 işarə, III fəsil 25 səhifə, 48176 işarə, Nəticə hissəsi 5 səhifə, 10189 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 232444 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı və elmi yeniliyi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, mövzunun işlənmə səviyyəsi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti əsaslandırılır, müdafiəyə çıxarılan müddəalar, tədqiqatın aprobasiyası və quruluşu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **“Robert Haynlayn və elmi fantastikanın “Qızıl əsr” dövrü”** adlı birinci fəsli iki paraqrafdan ibarətdir. Bu fəslin ***“Robert Haynlaynın həyatı, yaradıcılığı və fəlsəfəsi”*** adlanan birinci paraqrafında yazıçının həyat yolu, tərcümeyi-halı, dəst-xəti şərh edilmişdir.

Elmi fantastik əsərlərin görkəmli ustadı, romanları ilə öz möhürünü vuran, kosmik elmlərin yorulmaq bilməyən təbliğatçısı, amerikanların təbirincə desək, “dekanı” Robert Haynlaynın (Robert

Anson Heinlein, 1907-1988) dünya ədəbiyyatı tarixində müstəsna yeri vardır. ABŞ ədəbiyyatının görkəmli nümayəndəsi XX əsrdə yaşamış və dünya ədəbiyyatı xəzinəsinə bir-birindən qiymətli elmi fantastik əsərlər bəxş etmişdir[27]. Bu paraqrafda "Robert Haynlaynı dünya şöhrətli yazıçı edən hansı baxışları, mübarizəsi və fəlsəfəsi olmuşdur?" sualına cavab tapmağı hədəfləmişik.

Amerika elmi fantastika ədəbiyyatında "Robert Heinlein" adı böyük dəyəri təcəssüm etdirən və janrın dahisi kimi qəbul edilən monumental və dinamik bir fiqur kimi rezonans doğurur. Oxucuları onun əsərlərinə "gələcəyin həyat kitabı" kimi yanaşır və əsərlərini müdriklik dəryası hesab edirlər. XX əsrin 40-60-cı illər Qərb ədəbiyyatının mütəfəkkirləri ümumi bir fikrə gəlmişlər ki, Amerika ədəbiyyatında R.Haynlayn adlı yazıçının peyda olması yeni qitə ədəbiyyatının gələcək inkişafına böyük təsir göstərmişdir.

Robert Haynlayn şəxsiyyətinin tədqiqatçıları, əsasən, yazıçının yaradıcılığını üç dövrə bölürlər: Erkən yaradıcılıq (1939-1959), Yetkin yaradıcılıq (1961-1973) və Son illər yaradıcılığı (1980-1987). Robert Haynlaynın əsərlərini müəyyən əlaqələrə görə üç kateqoriyaya bölmək olar: "Gələcəyin tarixi" (Future History), "Lazarus Lonq" (Lazarus Lonq) və "Haynlaynın yeniyetmələr üçün əsərləri" (Heinlein juveniles).

Haynlayn davamlı olaraq, elmi fantastik hekayələrində müəyyən ictimai mövzulara müraciət edirdi: fərdi azadlığın və özünə əminliyin önəmi, individlərin cəmiyyətdə öhdəlikləri, mütəşəkkil dinin mədəniyyətə və dövlətə təsiri, cəmiyyətin "yadları" əzmə ənənəsi, gələcək insan obrazı, insanın öz ilkinə, öz aləminə, keçmişinə qayıtması və sair. Nasirin ədəbiyyatşünaslığa töhfəsini fərqli edən məqam məhz onun fəlsəfi fərziyyələrə vurğu etməsidir. Belə ki, dünyaca məşhur əsərlərində hər zaman ön planda qurtuluş, azadlıq və fərdiyyətçilik dayanır. Beş romanı tiranlığa qarşı üsyan, ondan çox əsəri azadlıq uğrunda mübarizə və demək olar hamısında

[27] Ələsgərova, G.A. "Yad ölkədə yad adam" romanında fövqəlxilasedici obrazı // Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. – Bakı: Azərbaycan, – 29-30, – 2019, II c. – s.1353-1356.

azadlıqla bağlı bəyanatlar vardır[28]. Haynlaynın fikrincə hər hansı bir təriqət, məzhəb və ya din siyasi güc əldə edərsə, öz əqidəsini qanuna çevirəcək və gəncləri belə sıxışdırmaqla buna nail olmağa çalışacaqlar. Əsərlərin təhlilindən aydın olur ki, Haynlayn gələcək dünyanı xüsusi bacarıqlı qəhrəmanlarında, ailə, mənəviyyat, təhsil və dəyərlərdə görürdü. Belə ki, Haynlaynın üstün qəhrəmanı yüksək intellektə malik təcrid olunmuş "dərin düşünən" inşandır.

İlk paraqrafda qoyulan problemi cavablandıraraq biz nəticəyə gələ bilərik ki, Haynlaynın ədəbi yolu bir çox mərhələlərdən və yol ayrıcından keçmiş, hər dəfə oxucuları onun əsərləri və həyat dəyərləri haqqında mövcud təsəvvürlərini dəyişməyə vadar olmuşlar. Belə ki, 1960-cı illərədək yazıçı "Amerika liberallığı və demokratiyası, dövlətçiliyi və arzusu" ideyalarını ön plana çəkir və məhz bu dəyərlərin Qalaktikanın hüdudlarına yayılmasını önəmsəyirdi. Daha sonrakı yaradıcılıq illərində isə yazıçı qələminin istiqamətini dəyişir, əsərlərində "Amerika ailəsi, metodist kilsə, ideal dövlət və Amerika dəyərləri"nə qarşı iddialar qaldırır[29].

Əgər 1957-ci ildə "Qalaktikanın sakini"nın qəhrəmanı bütün həyatı-çətinliklərdə "əsl amerikalı" olaraq qalırdısa və Amerika dəyərlərini bütün kainata yaymaq istəyirdisə, 70-80-ci illərdə Haynlayn qəhrəmanları əsl "qalaktika vətəndaşlarına" çevrildilər. Son dövr əsərlərdə artıq ABŞ nəhəng bir kainatda parçalanmış bir ada ölçüsü qədər kiçilir. Artıq son illərdə yazılarında "orta amerikalının hər kəsdən üstün olması" fikrini silərək fərqli dəyərlərdən daha çox (ailə, qurtuluş, xeyriyyəçilik) bəhs edilir.

Birinci fəslin ***"Elmi fantastikanın yüzillik dövründə Robert Haynlaynın yeri"*** adlı ikinci paraqrafında XIX əsrin son on illiyində Amerikada oxucular üçün ruhsal qidaya çevrilmiş elmi-fantastik janrın "Qızıl əsr", "Yeni dalğa", "Yumşaq" elmi fantastika, fentezi, kosmik opera, kiberpank ilə növbəli əvəzlənməsi təhlil edilmiş və Robert Haynlaynın nəzərəçarpacaq təsiri vurğulanmışdır. Bu paraqrafda qarşıya qoyulan sual "Robert Haynlaynın rolunu ABŞ

---

[28] Powell, J. Robert A. Heinlein's Soaring Spirit of Liberty: [Electronic resource]. URL: https://fee.org/articles/robert-a-heinleins-soaring-spirit-of-liberty/

[29] Mendlesohn, F. The pleasant profession of Robert A. Heinlein. / F.Mendlesohn. – Unbound, – 2019.

elmi fantastik ədəbiyyatında necə qiymətləndirmək olar?"dır.

XX əsrdə elmi fantastik növə əvəzolunmaz töhfəsini texnoloji cəhətdən çox inkişaf etmiş dövlətin nümayəndələri – Amerikanın yazıçıları vermişlər. Bütün yaradıcılığını elmi fantastikaya həsr edən bir çox ABŞ yazıçıları ədəbiyyat tarixində böyük iz qoymuşlar. Dünyaşöhrətli ədiblərdən olan R.Haynlayn, L.d.Rey, T.Stergen, A.Azimov, R.Bredberinin əsərlərində bəşəriyyətin inkişaf yolundakı fəlsəfi estetik problemlər qabardılmış, texnologiyanın tətbiqinin nəticələri müzakirə olunmuşdur[30].

Elmi fantastikanın "Qızıl əsr"i ədəbiyyat tarixində silinməz iz buraxmışdır. 1938-1946-cı illər "Qızıl əsr"i daha çox jurnallarda mövcud olmuş, bu dövrün əsərləri kitab formasında sonrakı illərdə nəşr edilmişdir. Bu jurnalların oxucularının əksəriyyəti kişi oxucular olmuş və bir növ oxucular arasında qardaşlıq hissləri bərqərar etmişdir. Demək olar ki, bu bədii növ və dövr təkcə ədəbiyyata deyil, elmə, hərbiyə, informasiya texnologiyasına, kinematoqrafiyaya da böyük təsir göstərmişdir. Bir çox yazıçılar məhz "Qızıl əsr" dövründə yazıb yaratmış və jurnallar vasitəsilə məşhurlaşmışlar. Azərbaycan oxucusuna bunlardan A.Azimov, P.Anderson, R.Bredberi, A.Klark, J.Kristofer və digər "ağır çəkili" yazıçılar tanışdır. Bir neçə ildən sonra artıq öz sözünü demiş amerikan Ayzek Azimov, Robert Haynlayn və ingilis Artur S.Klark elmi fantastikanın "Böyük üçlük" müəllifləri hesab olunmuşlar. Öz həmyoldaşlarından olan Azimov, Bredberi, Dik onun yaradıcılığını izləyir, sevimli əsərlərinin adını çəkir, fikir və xatirələrini qələmə alırdılar. Rey Bredberi isə, ümumiyyətlə, yaradıcılığına və uğurlarına görə Haynlayna minnətdar olduğunu ifadə etmişdir.

Robert Haynlayn irsini araşdıran Panşinin fikrincə son 40 ildə nəşr olunan və yazıçının təsirinin bu və ya digər şəkildə olduğu sonsuz elmi fantastik əsərlər vardır. Belə ki, yazıçı əsərləri ilə bir çox mövzuları – insan təkamülünü, zaman səyahətini, uzunömürlülük və transplantasiya ideyalarını, kosmosda inqilab, azadlıq, yadplanetli qiyamı, ideal cəmiyyət və digərlərini məharətlə təbliğ etmişdir. Misal üçün "Mafusailanın uşaqları" əsərində yazıçı insanın uzunömürlü

[30] Wagner, L.M. A history of American literature-1950 to the Present - Science Fiction and Alternative Worlds. – 374 p.

olmasını onun müdrik, qabiliyyətli, bacarıqlı olması anlamının yanlış olduğunu qabardır.

Tənqidçi Ceyms Qiffordun fikri ilə razılaşaraq bildirmək istərdik ki, yuxarıda adı sadalanan yazıçı ordusu Haynlaynın məhsuldarlığını ötsə də, çox azı onun geniş və orijinal tərzinə tay olduğunu iddia edə bilər. Qızıl əsr öncəsindən bu günümüzədək elmi fantastik yazıçıları həvəslə və tamlıqla inanırlar ki, Haynlayn onların karyeralarına cığır açmış, üslub və yazı tərzlərini formalaşdırmışdır.

Dissertasiya işinin ikinci fəsli **"Robert Haynlaynın insana fərqli baxışı"** adlanır. Birinci paraqraf ***"Robert Haynlaynın romanlarında fövqəlinsan obrazlarının təfsiri"*** adlanır, habelə Robert Haynlaynın 48 illik ədəbi karyerası ərzində oxucuların şüurunda dərin iz buraxan və ədəbiyyat tarixində əhəmiyyətli rol oynayan bir çox fövqəladə obrazları müəyyən etmək olar.

Haynlaynın yaratdığı personajlar bir-birindən müxtəlif cəhətlərinə görə fərqlənirlər. Sözəbaxmaz gənclərdən tutma, yaşlı patriotlara qədər hər bir obraz incəliklə işlənmiş, fikir və duyğuları yazıçının özünəməxsus dili ilə təsvir edilmişdir. Bəzən keçmişlə ümman gələcəyi əlaqələndirən yazıçı mağara adamını da, ulduzlara səyahət edən gələcək insanı da oxucuya məharətlə təqdim etməyi bacarmışdır. *"Yazıçı bütün yaradıcılığı boyu əsərlərində tüğyan edən qeyri-adi hadisələrdən daha çox oxucunun diqqətini Yer kürəsi sakinlərinin iç dünyalarında, duyğu, düşüncə və inanclarında baş verən proseslərə yönəltməyə çalışmışdır"* [31].

Robert Haynlaynın yaratdığı fövqəlinsan qəhrəmanlar digər yazıçıların təqdim etdiyi "şərin dahisi-frankeşteyn" obrazlarından, Darvinin "daha uyğun növündən" və Nitsşenin "güc iradəsindən" fərqlənir, belə ki, qəhrəmanların heç biri öz fövqəlliyindən istifadə edərək dünya üzərində hökmranlığa sahiblənmək istəmir. Məhz bu xüsusiyyətlər yazıçını digər fövqəlqəhramanlardan yazan elmi fantastlardan da, Nitsşe nəzəriyyəsindən də fərqləndirir. Elmi fantastik əsərlərdə yazıçının yaratdığı fövqəlinsan obrazlarının qeyri-adi bacarıqları onlara situativ yardımçı və üstünlük funksiyasını

[31] Ələsgərova, G.A. Dünya ədəbiyyatşünaslığında fövqəlinsan qaynaqları // Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. – Bakı: Azərbaycan, – 05-06 may, – 2017, 2-ci cild, – s. 827-828.

verir. Məhz fövqəlinsan obrazları ilə yazıçı cəmiyyətimizi bir neçə yüz il qabağa aparmış və yalnız onu dünyanın qoruyucusu və xilaskarı deyil, adi insanla bərabər çarpışan vermişdir.

Elmi fantast hər bir insanın al-əlvan daxili aləminə, mənəvi keyfiyyətlərinə inanaraq, onun münbit şəraitdə özünü dərk edərək, cəmiyyət üçün yararlı ola biləcəyini göstərmişdir. Belə ki, ədibin fikrincə, insan xeyirxahlığı, insan şəfqəti və fədakarlığı bu dünyanı kökündən dəyişə bilər. O xidməti borcunu yerinə layiqincə yetirən cəmiyyət həsrətində idi, əvəzində ləyaqətsiz və qüsurlu cəmiyyət görürdü[32]. Bəzi əsərlərində yazıcı üstün bilik və bacarıqlara sahib qəhrəmanın cəmiyyət qarşısında vəzifələrini sadalayır. Bəzi əsərlərində isə inqilab yolu ilə cəmiyyətin üstünlərini layiqli yerə qaldıracağını təsvir edir. Bəzi əsərlərində isə cəmiyyəti heçə sayaraq hər şeyin reallığına bir daha şübhə edir.

Robert Haynlaynın müəyyən əsərlərində təqdim etdiyi dünya müharibələri, atom bombası fəlakəti, günəşin sönməsi, yadplanetlilərin hücumu və s. təhlükələr qarşısında fövqəlgücə sahib insanlar dura bilərdi. Məhz bu səbəbdən ədib o dövrün yazıçılarından fərqli olaraq “orta amerikalı” tipindən uzaqlaşmış, gələcək antiutopik dünyada sağ qala bilən və soyunu davam edən obrazlar qalereyası yaratmışdır. Məqsədli olaraq, elmi fantast yazıçı dünyanın ayrılmaz parçası olan insanın gələcəkdə sağ qalması və digər ulduzlarda yaşaması üçün onda qeyri-adi bacarıqlar yaratmağı məqsədəuyğun görmüş və obrazlarını təkcə fizioloji deyil, psixoloji-mənəvi də ali olmağa dəvət etmişdir. Yazıçı bir növ fövqəlinsan yaradaraq sanki mənasız və vulqar həyat tərzi keçirən insanı daha da ali və yüksək görmək istəmiş, öz güc və bacarığını üzə çıxartmağa çağırmışdır.

Robert Haynlaynın bir sıra irihəcmli romanlarında fövqəlinsan obrazını yaratmasına aşağıdakı səbəbləri gətirmək olar:

İlk olaraq XX əsrin ilk yarısında yazıb yaradan elmi fantastların çoxu kimi Robert Haynlayn da insanın hazırkı halını tənqid edir və “tamlıqla inkişafetmiş” insan obrazının gözləntisində olduğunu bildirmişdir. Bir neçə əsərlərində yazıçı insanın indiki

[32] Guthrie, P.M. Robert A. Heinlein: A Philosophical Novelist: /A Master of Arts thesis was presented to the Department of English Western Kentucky University/ – Bowling Green, Kentucky faculty, 1985. – 95 p.

halından narazı qaldığını, insanın cismani olmasa da zehni cəhətdən daha da aliləşməsini arzulamış və bir növ insanın cari vəziyyətinə skeptik yanaşmışdır.

Həmçinin, ədibimiz elmi fantast yazıçı olaraq digər planetlərdə və ulduzlarda həyatın var olduğuna inanır və hər an hər cür təhlükənin yer kürəsi sakinlərini gözləyə biləcəyini əsərlərində təqdim edirdi. Məhz o təhlükələrdən qorunmaq və sağ qalmaq üçün insanın fövqəladə xüsusiyyətlərə sahib olmasını gərəkli görən yazıçı "adi insan" obrazından çıxaraq fövqəlinsan obrazları yaratmağı qarşısına məqsəd qoymuşdur.

Daha sonra, elmi fantast yazıçı yer kürəsini gələcəkdə yaşamaq üçün əlverişsiz olduğunu iddia edir və çətin şəraitdə sağ qala və yaşaya bilən fövqəlcanlılara ehtiyacı qaçılmaz görürdü. Yazıçı yaradıcılığının sonlarında "Fraydi" əsəri ilə o dövrün dəbdə olan komikslərindəki bayağı supermenlərinə qarşı çıxaraq, bir növ ustalıq dərsi nümayiş etdirmişdir. Super insanın necə yazılması və oxuculara necə təqdim edilməsini ədibimiz son illərinin əsərlərində nümayiş yana təqdim etmişdir. Bundan əlavə fövqəlinsan obrazı, ədibin fikrincə, oxucuda hər zaman xoş və pozitiv əhval ruhiyyə yaradır.

Önəmli məqamlardan biridə odur ki, fövqəlinsan obrazının yazılmasını bir növ o dövrün ixtiraları və elmi nailiyyətləri qarşıya qoyurdu. Kosmik ixtiralar adi insanın deyil, fövqəlinsanın yaşamını gələcək zamanda mütləq formada tələb edirdi. Bu məqamı da əsərlərinə yazıçı xüsusi məharətlə gətirə bilmişdir.

Robert Haynlaynın fövqəlinsan obrazlarına müraciətinin əsas səbəbi əzəli-əbədi dəyərlər kontekstində müasir elmi yeniliklərin yerini və rolunu müəyyən etməklə bağlıdır. Universal dəyərlərdən çıxış edən sənətkar irqçilik və ayrı seçkilik stereotiplərindən qaçmağa çalışır, qatı libertarian olaraq azad və sərbəst bir aləm haqqında təsəvvür formalaşdırmağa cəhd göstərirdi[33].

Robert Haynlayn yazdığı bir neçə romanında fövqəlinsan – süni insan, üstinsan, postinsan, uzunömürlü insan yaratmışdır. Bunlara misal olaraq, "Yad ölkədə yad adam" (Stranger in a strange land, 1962), "Fraydi" (Friday, 1982), "Bu üfüqdən o tərəfə" (Beyond

---

[33] Mises, D. Was Robert A. Heinlein a Libertarian? [Electronic resource]- June 2, 2010. URL: https://mises.org/mises-daily/was-robert-heinlein-libertarian

This Horizon, 1948), "Sevgi üçün kifayət qədər zaman var" (Time Enough for Love, 1973), "Mafusailanın uşaqları" (Methuselah's Children, 1958), "Körfəz" (Gulf, 1949), "Cerri adam idi" (Jerry Was a Man, 1947) əsərlərini göstərmək olar.

Robert Haynlayn dövrünün bir çox "tabu" olunmuş mövzularına müraciət etmiş, yeni ideyalar ilə oxucu qarşısına çıxmışdır. Amerikanın dahi elmi fantast yazıçısı "Bu üfüqdən o tərəfə" əsərində ideal genlərin calağından "dizayn edilmiş" ailə, "Yad ölkədə yad adam" əsərində Marslıların fövqəlgücü ilə silahlanmış "xilaskar İsa Məsih", "Mafusailanın uşaqları" əsərində bir neçə yüz yaşı olan, lakin cavan qalan adam, "Cerri adam idi" hekayəsində genetik modifikasiya yolu ilə təkmilləşmiş və sivil hüquqlar əldə etmiş şimpanzelər, "Fraydi" əsərində isə süni qadın obrazı haqqında yazaraq, elmi fantastikaya yeni ideya və mövzular gətirmişdir.

Aydındır ki, Haynlayn elmi fantastik ədəbiyyatda bir sıra əsas fəlsəfi məsələlər üzərində spekulyasiya edir. Birincisi-insanı, cəmiyyətinin ən mühüm elementini təkmilləşdirmək və gücləndirmək üçün ailə məsələlərini diqqətlə araşdırır. Haynlayn üçün ailə dəyərləri hər şeydən üstündür. İkincisi, Haynlayn estetik həyata güclü maraq göstərir. Əsərlərində din (xüsusilə Xristianlıq, İsa peyğəmbər və onun mesajı) və əxlaq tez-tez sorğulanır. Belə ki, ailə dəyərləri önəm daşısa da, nasir adət-ənənələrin yerini intellektual dəyərlərlə əvəzləməyi çağırır. Nəhayət, Haynlaynın ideal qəhrəmanı zəkasının və həyat macərasının çoxalması üçün yaşayır. Haynlaynın iddiasına əsasən istər fərd olsun, istər hökumət, hər zaman sağ qalmaq üçün üstün zəkasından yararlanmalıdır.

Yazıçının gəldiyi qənaət budur ki, insan beyni ifrat inkişaf edib və sürəkli formada tərəqqi etməkdədir, bir an sükunət formasını alarsa, sönər, ölümə məhkum olar. Haynlayn irsinin araşdırılması həm də bu baxımdan – sürətlə dəyişən dünyada klassik elmi fantastik ənənələrini izləmək yönündən aktualdır. Haynlayndan gözəl fövqəlinsan, üstinsan, post insan – bir sözlə, gələcək insan modelini yarada bilən ikinci elmi fantast göstərmək çox çətin olar.

***"Robert Haynlaynın yeniyetmə əsərlərində gəncliyin gücü"*** adlanan ikinci paraqrafda məhz yeniyetmələrin ithafına yazılan əsərlər təhlil edilmişdir. Bu əsərlər dünyanın hər yerindən olan

məktəblilərin böyük marağına səbəb olmuş, onların əsasında kino və cizgi filmləri çəkilmişdir. Müxtəlif ekstremal vəziyyətlərlə üzləşən məktəblilərin mübarizə əzmi, məğlubedilməzliyi, xilaskarlıq missiyası bu əsərlərin leytmotivinə çevrilib. Yeniyetmə əsərləri fantastik səhnələrlə zəngindir, dili sadədir, hadisələr sürətlə dəyişir və üslub aydındır. Haynlaynın digər əsərlərində olduğu kimi hər birində azadlıq mövzusu bu və ya digər formada özünü göstərir.

Əsərlərdə gənclərin yadplanetlilərlə (misal üçün, marslılarla) anlaşılmaz və təfəkkürə sığmaz dialoqu, birgə qurduğu "su ayırma" ayinləri, astroloji fərqlilik çox məharətlə işlənib və gənc oxucuda böyük maraq oyadır. Yazıçı humanoid olmayanların insan övladına kömək etməsini, yaralı uşaqları sağaltmasını və onlara dəstək olmasını "Qırmızı planet", "Kosmik geyimin varsa, səyahət edəcəksən", "Marslı Podkeyn" kimi əsərlərində yüksək formada ərz etmişdir. Uzaq Qalaktik planetlərin sakinlərinə xas olan keyfiyyətləri, xüsusi ilə yadplanetlilərdən qətiyyən təhlükənin, pisliyin gələ bilməməsini, ədalətli və hər sahədə irəliləmiş olmalarını xəyal edən Robert Haynlayn Yer planetinin sakinlərinə bir növ nümunə olaraq göstərir.

Bu əsərlərin oxucularının yeniyetmələr olması düşünülsə də, geniş oxucu kütləsi tərəfindən həvəslə qarşılanmışdır. Haynlayn kitab oxuyan, kitaba həvəs göstərən uşaqlara böyük hörmət bəslədiyi üçün hər il yeni, daha mürəkkəb, ruh yüksəkliyi verən, maraqlı romanları ilə onların qarşılarına çıxırdı. Haynlayn gəncliyə güvəndiyini, gələcək nəslin dünyanı daha gözəl idarə və təmsil edəcəklərinə inandığını hər əsərində müxtəlif obrazların dilindən təsvir edirdi. Yazıçının fikrincə, artıq yaxın gələcək layiqli, savadlı, ölkəsini, xalqını və dünyasını düşünən və önəm verən nəsil ilə irəli gedəcəkdir. Elmi yeniliklərdən məharətlə istifadə edən məktəblilər öz valideynlərindən böyük addımlarla daha irəli gedərək Yer kürəsini sülhə, çiçəklənməyə, inteqrasiyaya və yeniliklərə aparacaqdır. Əsərləri ilə ədib gələcək nəslin ədalətli, rəqabətli, elmə dəyər verən, təbiəti və təbii resursları qoruyan, insanlığı, mənəviyyatı saxlayan cəmiyyət yaradacağına əmindir.

Yazıçının qəhrəmanları, adətən, öz yollarını böyüklərin cəmiyyətindən keçərək aparan çox ağıllı və qeyri-adi bacarıqları olan

yeniyetmələrdir. Ümumilikdə, əsərin gənc qəhrəmanları qısqanc və paxıl həmyaşıdları, onları başa düşməyən valideyn və müəllimləri ilə qalmaqal, macəra yaşayaraq, sonda müxtəlif müsbət nailiyyətlər əldə etməyi bacaranlardır. Haynlaynın fikrincə, böyüklərdən fərqli olaraq, yetkinlik yaşına çatmayan oxucular daha mürəkkəb və çətin mövzuları rahat qavraya bilirlər. Yazıçının yeniyetmələr üçün yazdığı əsərlər çox bitkin fikirlərlə bəzədilmişdir ki, habelə onları böyüklər də həvəslə oxuyur. Hətta bəzi əsərlərində yazıçı (misal üçün, "Ulduz desantı", "Qırmızı planet", "Marslı Podkeyn") təxribatçı mövzulara toxunmuş və əsərə olan marağı daha da artırmışdır.

Adı çəkilən kitablar bütöv bir nəsil oxucularına misilsiz təsir bağışlamışdır. Gənclərin mənəvi-estetik dünyagörüşünün formalaş-masında böyük rolu olan J.Vern, V.Skott, R.Kiplinq, A.S.Ekzüperi kimi dahi uşaq yazarlarının adları ilə yanaşı, ədibin də adını qeyd etmək olar. Haynlaynın elmi fantastik əsərləri gənc oxucularda geniş təfəkkür, ucsuz-bucaqsız üfüqlər formalaşdırmış və gələcək həyatına təsir etməyi bacarmışdır. Haynlayn inanırdı ki, əsərlərindəki gələcək nəsil yaxın gələcəkdə ulduzlara və onun hüdudlarından kənara səpələnəcəklər, dürüstlüklərini, doyumsuz maraqlarını, cəsarət və nəcibliklərini özləri ilə getdikləri yerlərə aparacaqlar. Bildirdiyimiz kimi, Robert Haynlaynın övladı olmamışdır, lakin onun əsərləri ilə böyüyən hər bir insan qürurla özünü "Haynlaynın övladı" adlandıra bilər.

III fəsil **"Dünya ədəbiyyatşünaslığında fövqəlinsan"** adlanır və iki paraqrafdan ibarətdir. Birinci paraqrafda (***"Elmi fantastik əsərlərdə fövqəlinsan konsepsiyası"***) fövqəlinsan, üstinsan, ali insan, kamil insan mövzuları da paralel işlənmiş, müxtəlif dövrlərdə yeni və fərqli bucaqlar altında bu məsələyə yanaşılmışdır. Bəs "fövqəlinsan" nədir? Bu ifadəni necə başa düşmək olar? Fövqəlinsan adi insandan neçə fərqlənir? Bədii ədəbiyyatda, xüsusilə elmi fantastik növdə fövqəlinsan obrazı necə yaradılmışdır?

Fövqəlinsan həm ruhən, həm də fizioloji olaraq, normal insanın imkanlarını üstələyir, daha keyfiyyətli, yüksək canlı nəzərdə tutulur. Antik dövrdə müdriklər və hökmdarlar fövqəlinsan dərəcəsinə yüksəldilirdilər. Orta əsrlərdə isə təbiət qanunlarına və qoyulan

qaydalara tabe olmayan dahi və zəki insanlar əsərlərdə yüksəldilərək, üstinsan obrazında təqdim edilirdi. Yazılan bütün fövqəlbəşər obrazları birləşdirən bənzəri cəhət odur ki, bu növ insanların cəmiyyət tərəfindən fövqəl qüvvəyə malik olması tərbiyə edilməyib və öyrədilməyib, əksinə bu "astral" insan obrazları yaranan gündən, doğulandan, əmələ gələndən belə olmuş və ömrünün sonuna kimi də belə qalacaqları verilmişdir.

Bədii ədəbiyyatda fövqəlinsan obrazı işlək mövzu olsa da, bu terminə ədəbiyyatda Alman filosofu Fridrix Nitsşe (Friedrich Nietzsche 1844-1900) yeni nəfəs vermişdir. Nitsşenin iki il ərzində (1883-1885) yazdığı və dörd hissədən ibarət şah əsəri olan "Zərdüşt belə deyirdi" ("Also sprach Zarathustra") kitabında o, bir çox konsepsiya və ideyalara toxunmuşdur. "Nitsşe "Zərdüşt belə deyirdi" kitabında öz idealını "Übermenschen" − "fövqəlinsan, üstinsan" obrazında ərz etmişdir. Fövqəlinsan sifətində o hər şeydən əvvəl Zərdüştün özünü təsvir etmiş, ona ən yüksək qəhrəmanlıq və yetkinlik sifəti vermişdir.

Fridrix Nitsşedən sonra XX əsrdə dünya ədəbiyyatında ən qızğın polemika yenə də insan üzərində idi. Bu dönəmdə insan təkrar yada düşmüş, onun ən acı və ağır vəziyyətlərdə nələrə qadir olması araşdırma obyektinə çevrilmişdir. İngilis dilli ədəbiyyatda insan konsepsiyası yeni bucaq altında işlənməyə başlanmışdır. Cek London "Dəniz canavarı" və "Martin İden" əsərlərini Nitsşenin üstinsan və radikal individualizm ideyasının əksinə yazmış və fövqəlinsan konsepsiyasını tənqid etmişdir. C.Londonun fikrincə, bu tip insanlar xudbin, özündənrazı və cəmiyyətə yararsız olur. Corc Bernard Şounun 1903-cü ildə yazdığı "Adam və Superadam" tamaşası fövqəlinsan mövzusuna nümunədir. Tamaşanın əsas qəhrəmanı özünü inqilabın nəticəsində fövqəlinsan hesab edərək, adi insanlardan üstün tutur. Ceyms Coys "Uliss" (1922) romanının birinci hissəsində fövqəlinsan mövzusundan istifadə edir.

Demək olar ki, XX əsrin birinci rübü dünyəvi və qatı insanmərkəzçi postulatları ilə Nitsşe əsrinə çevrilsə də, Avropada XX əsrin ikinci rübündən sonra fövqəllik arxa plana keçmiş, əskiləşmiş, dəbdən düşmüşdür. Lakin Amerikada əksinə cari ideya yüksələn xətlə müxtəlif formalarda təzahür etməyə başlamışdır.

Nitsşenin təqdim etdiyi fövqəlinsan obrazı zamanla ədəbiyyatda formasını, strukturunu və mənasını dəyişmiş, elmi fantastik əsərlərdə bu və ya digər formada öz təzahürünü tapmışdır. Fantastlar yaratdıqları obrazlara fövqəlqüvvə verərək oxucunun qarşısına yeni ideyalarla çıxmağa çalışmışlar. Əsərlərdə fövqəlinsan obrazları fiziki xüsusiyyətləri ilə – uçmaq, dərinliklərdə qalmaq, inanılmaz qüvvəyə sahib olmaq və sair keyfiyyətləri ilə təsvir edilirlər. Fövqəlinsanın genetik modifikasiya, kibernetik implantlar, nanotexnologiya və ya uzaq gələcəkdə insan təkamülü vasitəsilə yetişdirilmiş qabiliyyətləri müxtəlif əsərlərdə, xüsusilə elmi fantastik romanlarda təsvir edilir. Elmin və texnikanın inkişafı fövqəlinsan obrazını son dövrlərdə daha da aktual etmiş, müxtəlif cür superqəhrəman obrazları oxuculara təqdim edilmişdir.

Fövqəlinsan hekayələri, deyildiyi kimi, insanın normal ovqatından üstün, qeyri-adi keyfiyyətlərə malik qəhrəmanların təsviridir[34]. R.Haynlaynla yanaşı, dünyanın bir çox ölkələrindən olan Olaf Stepldon (Böyük Britaniya), Teodor Stargen (ABŞ), Filip Vayli (ABŞ), Alfred van Voqt (Kanada-ABŞ), Stanislav Lem (Polşa) elmi fantast yazıçılar kimi, fövqəllik mövzusuna müraciət etmiş, çox gözəl bədii nümunələri yaratmağı bacarmışlar.

Son paraqraf ***“Azərbaycan bədii irsində kamil insan obrazı”*** adlanır və burada fövqəlinsan obrazlarının Azərbaycan ədəbiyyatında işlənməsi, xüsusilə XX əsrdə elmi fantastik əsərlərdə özünü büruzə verməsi təhlil ediləcəkdir. Ədəbiyyatşünaslığımıza ekskursiya etdikdə fövqəlinsan, kamil insan, üst insan və ya post insan obrazında verilən baş qəhrəmanlara çox da rast gəlinmir. Azərbaycan dövləti müsəlman ölkəsi olduğundan ədəbiyyatımızda fövqəlinsan daha çox kamil insan obrazında öz əksini tapmışdır. Yazıçılar kamil insan obrazını fiziki gücdə və xarici görünüşdə deyil, baş qəhrəmanların daxilən, mənən, ruhən yüksəlməsini və ağıldan kamilləşməsini yaratmışlar.

1950-ci illərdən başlayaraq Azərbaycan əhəmiyyətli sosial, siyasi, ədəbi və mədəni oyanış dövrünü yaşadı, özünəməxsus yeniliklər və tərəqqi ilə yadda qaldı. Bu dövrdə yazılan əsərlərdə

---

[34] Scott, J. UbiComp: Becoming Superhuman. / J.Scott. Intel Research Cambridge, – 2005. – 3 p.

ictimai, siyasi və mədəni hadisələr öz əksini tapmışdır. XX əsrin ikinci rübündə gərgin süjetli elmi fantastikaya geniş maraq ədəbi yaradıcılıqda baş qaldırdı. Müasir kino janrının inkişafı isə elmi fantastikanın əhəmiyyətini təsdiqləyir və onun hətta artdığını sərgiləyir.

Fantastika üfüqlərində parlamağı bacaran istedadlı nasirlərimiz arasında Allahverdi Eminov, İbrahim Hüseynov, Namiq Abdullayev, Emin Mahmudov, Qabil Əhmədov və yeganə qadın yazıçı olan Elmira Zamanova, ən gənc yazıçılardan olan Lalə Həsənova və Vüsal Nurunu göstərmək olar. Adı sadalanan yazıçıların "okeanında" oxucular yelkənlərini daima küləyin orientində saxlayırlar.

E.Mahmudovun bir sıra hekayələri vardır ki, hər yaş oxucuların diqqətini çəkmişdir. Bunlardan "Fenomen", "Mümkünsüzlüyün formulu", "Simfoniya", "Buluddan dərman" və sair. Hekayələrdən biri olan "Fenomen" 1964-cü ildə qeyri-adi bacarığı olan tələbə qız haqqındadır. Nilufər adlı qız ağır avtomobil qəzası nəticəsində uzun müddətliyə yaddaşını itirir. Lakin həkimlərin eksperimental yollu müdaxiləsi ilə fenomenal yaddaşa sahib olmağa başlayır. Baş qəhrəman çox asanlıqla müxtəlif dilləri öyrənir, yazılan və nəşr edilən hər məlumatı, məqaləni, hesabları kompüter kimi yaddaşına hopdurur. Müxtəlif mövzularda yazan Namiq Abdullayev də "Sehrli oğlan" hekayəsində qeyri-adi bacarıqları olan oğlan obrazını təsvir etmişdir. Elmi texniki tərəqqinin son nailiyyətlərinə əsaslanan bir konstruktor ildırım sürəti ilə qaçan, pələngə rahatlıqla qalib gələn, habelə futbol oyununda 17-dən çox qol vuran oğlan "düzəldir". Son olaraq, post-insan və fövqəlvarlıq mövzusu nadir hallarda işlənmişdir, lakin mövcud nümunələr Azərbaycan ədəbiyyatında bu mövzunun zəngin və maraqlı potensialını göstərir.

Bütövlükdə tədqiqat aşağıdakı **nəticə**lərə gəlməyə imkan vermişdir:

1. R.Haynlayn 1940-cı illərdə nüfuzlu jurnallarda çap olunan ilk yazıçılardan biri olmuş, ən çox satılan elmi fantastik əsərlərin müəllifi və "Elmi Fantastikanın Qızıl Dövrü"nün "Böyük Üçlük" yazarlarından biri kimi tanınmışdır. Onun erkən əsərləri əsasən Amerikanizm, anti-kommunizm və militarizm mövzularını əks etdirir və bu mövzular İkinci Dünya müharibəsindən sonrakı Amerikanın

sosial-siyasi mühiti ilə uyğun gəlirdi. Lakin, 1960-cı illərdən etibarən onun yaradıcılığı dünyəvilik, azadlıq (dövlətdən və dindən) və fərdiyyətçilik kimi mövzulara yönəlmiş, bu da cəmiyyətdə baş verən əks-mədəniyyət düşüncəsinə və şəxsi muxtariyyətə doğru genişlənən hərəkatlara cavab olaraq inkişaf etmişdir.

2. Haynlaynın elmlə və texnologiya ilə dərindən maraqlanması, həmçinin liberal baxışları onun demək olar ki, bütün əsərlərinin leytmotivi kimi çıxış etmiş və onu spekulyativ elmi fantastika ənənəsinə möhkəm bağlamışdır. Onun romanları azad cəmiyyət, azad cinsi münasibətlər və azad bazar prinsipləri kimi mövzuları əhatə etmiş və həm tərif, həm də tənqid qazanmışdır və beləliklə Haynlaynı ədəbi və siyasi müzakirələrin mərkəzinə yerləşdirmişdir. Bu mənada onun əsərləri ekzistensialist düşüncənin əks-sədası kimi qiymətləndirilə bilər və burada fərdin azadlıq, muxtariyyət və mənəviyyat uğrunda mübarizəsi əsas qayğıdır. Bundan əlavə, Haynlaynın fövqəlbəşər personajlarına münasibəti, ənənəvi insan məhdudiyyətlərini aşmağa can atmaq istəyi ilə bağlıdır və bu, sonrakı transhumanizm və posthumanizm diskursunun xəbərçisi kimi görünür[35].

3. Haynlaynın birbaşa iştirakı ilə "Qızıl Dövr"ün (1938-1950) inkişafı, xüsusilə Con V.Kempbelin redaktorluğu altında, bir sıra dünya şöhrətli əsərlərin çapına səbəb olmuş və spekulyativ elmi fantastika sahəsində yeni bir məktəb yaratmışdır. Son yüz il ərzində bir çox elmi fantastika yazıçıları – məsələn, Rey Bredberi, Devid Gerrold və Qreqori Benford – Haynlaynın onların yaradıcılığına təsir etdiyini etiraf etmişlər. Elmi fantastika inkişaf etdikcə, "Qızıl Dövr" yerini "Yeni Dalğa" (1955-1970), fentezi və kiberpank kimi alt janrlara vermişdir. Haynlaynın irsini izləyərkən görürük ki, onun əsərləri yalnız elmi fantastika janrının istiqamətini müəyyən etməklə qalmamış, həm də kiberpankın fəlsəfi suallarından tutmuş postmodern elmi fantastikada tapılan cəmiyyət tənqidlərinə qədər janrın sonrakı inkişaflarına təsir göstərmişdir[36].

---

[35] Ələsgərova, G.A. ABŞ-da elmi-fantastik janrın "dekanı" R. Haynlaynın yaradıcılığı haqqında. // – Bakı: Bakı Slavyan Universiteti, Tağıyev Oxuları, – 2016. II cild, – s. 171-175.

[36] Ələsgərova, G.A. Elmi-fantastikanın Amerikada yüz illik dövr analizi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2016. №10, – s. 300-305.

4. Haynlayn, elmin və texnologiyanın birləşməsindən ilhamlanaraq, tez-tez gələcək distopiyalarda sağ qala bilən və inkişaf edən fövqəlbəşər personajlar yaratmışdır. Bu meyl XX əsr elmi fantastikasında geniş yayılmış bir tendensiyanı əks etdirir: burada texnologiya həm insanlıq üçün qurtuluş, həm də təhlükə təşkil edir. Haynlaynın "Yad ölkədə yad adam", "Fraydi" və "Bu üfüqdən o tərəfə" əsərlərindəki fövqəlbəşər obrazlar zəka, azadlıq və özünü idarə kimi dəyərlərin birləşməsini təmsil edir. Bu obrazlar, Nitsşenin "Übermensch" (üstinsan) adlandırdığı anlayışın əksidir, belə ki, Haynlaynın fövqəlinsana baxışı fərqlidir, çünki o, güc və hökmranlıqdan çox, azadlıq, bərabərlik və qardaşlıq dəyərlərini təşviq edir. Haynlaynın əsərlərinin fəlsəfi əsasları, xüsusilə şəxsi azadlığa vurğusu ekzistensializmlə səsləşir və getdikcə mexanikləşən və bürokratlaşan dünyada fərdin aliləşərək mənalı bir həyat axtarışını əks etdirir[37].

5. Sosioloji baxımdan Haynlaynın fövqəlbəşər obrazları həmçinin cəmiyyətin tənqidi üçün metafora kimi şərh edilə bilər – sərt hakimiyyət strukturlarına, hökumət nəzarətinə və dini doqmalara meydan oxuyur. Xüsusilə onun son illərdəki əsərləri radikal fərdiyyətçiliyi müdafiə edir və personajlarını ənənəvi sosial məhdudiyyətlərdən qurtuluşun vasitəsi kimi təqdim etmişdir. Bu tematik dəyişiklik 1960-cı və 1970-ci illərdəki geniş ictimai hərəkatları əks etdirir, belə ki, əks-mədəniyyət ideologiyaları şəxsi azadlığı strukturlaşmış hakimiyyətə üstün tuturdu[38].

6. Haynlaynın əsərlərindəki "fövqəlinsan" ideyası ənənəvi təfsirlərdən, xüsusən də Nitsşenin "Übermensch" anlayışından fərqlənir. Nitsşenin konsepsiyası güc vasitəsilə əxlaqı aşmağa yönəldiyi halda, Haynlaynın fövqəlinsan obrazları azadlıq, bərabərlik və qardaşlıq prinsiplərinə vurğu edir və daha çox demokratik ideallarla uyğunluq təşkil edir. Bu bərabərlik vurğusu xüsusilə onun son əsərlərində diqqətəlayiqdir, burada fövqəlinsan obrazı yalnız

---

[37] Ələsgərova, G.A. ABŞ-da elmi-fantastik janrın "dekanı" R. Haynlaynın yaradıcılığı haqqında // – Bakı: Bakı Slavyan Universiteti, Tağıyev Oxuları, – 2016. II cild, – s.171-175.

[38] Alasgarova, G.A. Analyze of superhuman in Robert Heinlein novels // Scientific Discussion, – 2016. 2(2), – p. 31-34.

başqalarından üstün olan fərd kimi deyil, cəmiyyətin kollektiv yaxşılaşmasının simvolu kimi təqdim olunur. Bu fəlsəfə Haynlaynın əsərlərini utopik və distopik gələcəklər haqqında daha geniş ədəbi diskursun tərkibinə daxil edir, burada fövqəlinsan obrazı insan potensialının mövcud məhdudiyyətləri aşaraq araşdırılması üçün vasitə rolunu oynayır.

7. Haynlaynın gələcək nəsillər konsepsiyası XXI əsrdə bəşəriyyətin qarşılaşdığı problemləri özündə cəmləşdirir. Onun yeniyetmə baş qəhrəmanlarının təsviri gənclərin getdikcə daha mürəkkəbləşən dünyanın yükünü daşıya biləcəyinə dərin inamı əks etdirir. Bu gənc obrazlar, intellektual yetkinlik və dözümlülüklə seçilən, tez-tez özlərini ekzistensial dilemmanın mərkəzində tapır və cəmiyyətin gözləntiləri ilə şəxsi azadlıq arasındakı gərginlikləri həll edirlər. Haynlaynın gənclərə yönəlmiş ədəbiyyatı, tez-tez yetkinlik dövrünü əhatə edən hekayələrlə doludur və bu, həm psixoloji, həm də sosioloji baxımdan şəxsiyyət formalaşması ilə üst-üstə düşür, xüsusilə fərdlərin azadlıq və muxtariyyət tələblərinə necə cavab verdiyini göstərir[39].

8. Azərbaycan ədəbiyyatşünaslığında fövqəlbəşər personajlar nadir hallarda rast gəlinir, lakin "Kitabi-Dədə Qorqud" və "Xəmsə" kimi əsərlərdə mövcuddur. Haynlaynın əsərlərinə bənzər şəkildə, bu obrazlar tez-tez insanın təkmilləşməsi, kamilləşməsi, və ali dəyərləri təmsil edir. Daha sonra azərbaycanlı yazıçılar, məsələn İ.Hüseynov, R.Rza və S.Vurğun, əsərlərində fantastika elementləri və kamilləşmiş insan obrazlarına yer verərək, spekulyativ ədəbiyyatın daha geniş ənənəsinə töhfə vermişlər. Ədəbiyyatlararası müqayisə, fərqli ədəbi ənənələrdəki yazıçıların fərdi mükəmməllik və cəmiyyətin məhdudiyyətləri arasındakı gərginliyi araşdırmaq üçün bu obrazlardan istifadə etməsi ilə fövqəlbəşər konsepsiyasının universallığını vurğulayır. Son olaraq, E.Mahmudovun, N.Abdullayevin elmi fantastik əsərlərində də fövqəl baş qəhrəmanlar gözəl nümunələrdir[40].

---

[39] Ələsgərova, G.A. Robert Haynlaynın yeniyetmə əsərlərində gələcək nəsil obrazı // Journal of Qafqaz University: Philology and Pedagogy, – 2016. 4(2), – s.179-187.
[40] Alasgarova, G.A. Why has sci-fi literature lost its popularity in Azerbaijan after 1990? // – Москва, Россия, Вестник Российского Университета Дружбы Народов. Серия: Литературоведение. Журналистика, – 2020. Том 25, № 1, – p.68-82.

***Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:***


1. ABŞ-da elmi-fantastik janrın dekanı Robert Haynlaynın həyat və yaradıcılığı // – Bakı: Azərbaycan Dillər Universiteti, Dil və Ədəbiyyat, – 2016. №4, – s.166-173.
2. ABŞ-da elmi-fantastik janrın “dekanı” R.Haynlaynın yaradıcılığı haqqında // – Bakı: Bakı Slavyan Universiteti. Tağıyev Oxuları, – 2016. II cild. – s.171-175.
3. Fantastikanın ən qabaqcıl növü olan elmi-fantastik janrın təhlili // – Bakı: Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2016. № 4, – s.132-136.
4. Elmi-fantastikanın Amerikada yüz illik dövr analizi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri – 2016. № 10, – s.300-305.
5. Analyze of Superhuman in Robert Heinlein novels // – Praha, Czech Republic, Scientific discussion, – 2016. #2 (2), – p.31-34. ISSN: 3041-4245, http://scientific-discussion.com/en/scientific-discussion/
6. Robert Haynlaynın yeniyetmə əsərlərində gələcək nəsil obrazı // – Baku, Journal of Qafqaz University. Philology and Pedagogy, – 2016. Vol. 4, No 2, – s.179-187.
7. Supernatural Characters in American Science Fiction Novels // – Vienna, Austria: European Journal of Literature and Linguistics, – 2017. Issue 1, – p.52-55.
8. Why has Memoir Literature Lost its Popularity in Azerbaijan after 1990? // The 9$^{th}$ International Research Conference on Education, Language and Literature. – Tbilisi, Georgia, – 3-4 may, – 2019, – p.127-134. ISSN: 2298-0180 / e-ISSN: 2587-472 https://ircelt.ibsu.edu.ge/irceelt-2019-proceedings-book/
9. Why has SCI-FI Literature Lost its Popularity in Azerbaijan after 1990? // – Москва, Россия: Вестник Российского университета дружбы народов. Серия: Литературоведение. Журналистика, – 2020. Том 25, № 1, – с.68-82. ISSN 2312-9220 (Print), ISSN 2312-9247 (Online), РИНЦ, ВАК

10. Elmi-Fantastik əsərlərdən Azərbaycan dilinə daxil edilən söz və terminlər // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı. – Bakı: – 29-30 aprel, – 2016, – s.1251-1252.
11. Elmi-fantastika janrın “Böyük üçlük” yazıçılarının Azərbaycan ədəbiyyatına qarşılıqlı təsiri və inkişafı // “Xarici Dillərin Tədrisinin Aktual Problemləri” Respublika elmi-praktiki konfransı. – Bakı: ADU, – 5-6 may, – 2016, – s.444-446.
12. Elmi-fantastik ədib Robert Haynlayn yaradıcılığında multikulturalizm-sivilizasiyalararası dialoq kimi // Azərbaycan Respublikasının Təhsil Nazirliyi Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı. – Bakı: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, – 24-25 may, – 2016, II cild. – s.552-554.
13. Dünya ədəbiyyatşünaslığında fövqəlinsan qaynaqları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. – Bakı: – 05-06 May, – 2017, 2-ci cild, – s.827-828.
14. Robert Haynlaynın yaradıcılığına quşbaxışı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. – Bakı: – 05-06 May, – 2017, 2-ci cild, – s.849-850.
15. “Yad Ölkədə Yad Adam” romanında fövqəl xilasedici obrazı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. – Bakı: – 29-30 aprel, – 2019, 2-ci cild, – s.1353-1356.
16. Azerbaycan XXI asır bilimkurğu romanları // Ankara II. Uluslararası Bilimsel Araştırmalar Kongresi. – Ankara, Türkiyə: – 6-8 mart, – 2020, – s.447-449. ISBN-978-625-7914-23-9, https://www.ankarakongresi.org/,

Dissertasiyanın müdafiəsi _05_ _dekabr_ 2024-cü il tarixində saat 10:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _05_ _noyabr_ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.09.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 42094 işarə

Tiraj: 100